## BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 80 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN SƏRƏNCAMI

2006-cı ilin fevral ayında Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsinin 80 illiyi tamam olur.

Qurultay türkdilli xalqların tarix və etnoqrafiyasının, dil və ədəbiyyatlarının aktual problemlərinin həllində mühüm rol oynamış, bu xalqların mədəni inkişafında yeni bir mərhələnin təməlini qoymuşdur. Qurultayda müzakirə obyekti olan problemlər arasında türk dillərinin əlifba, orfoqrafiya və terminologiyası məsələləri xüsusi yer tutmuş, bu sırada isə yeni əlifbaya keçidi təmin etmək başlıca məqsəd olmuşdur.

Əlifba islahatı məsələsi Azərbaycanda XIX əsrdən başlayaraq, Mirzə Fətəli Axundov başda olmaqla dövrün tərəqqipərvər ziyalılarının diqqət mərkəzində dayanmışdır. Həmin dövrdən etibarən Azərbaycan mədəniyyətinin inkişafını müəyyənləşdirən Avropa yönümlü maarifçilik hərəkatının nümayəndələri latın qrafikası əsasında tərtib olunmuş əlifba ideyası uğrunda mübarizə aparmışlar. Məhz buna görə belə mütərəqqi hərəkatın önündə gedən Azərbaycanın əlifba islahatlarının həyata keçirilməsində də qabaqcıl mövqe tutması təbii hal kimi qarşılanmalıdır. Hələ 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə yaradılmış «Yeni türk əlifba komitəsi»nin səyləri nəticəsində 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətlənmiş, bu isə yeni əlifbaya keçidlə bağlı tərəddüd edən türkdilli xalqların daha mütəşəkkil fəaliyyətinə təkan vermişdir. Bu baxımdan türk dünyasında uzun illər ərzində aparılan mübahisə və müzakirələrə son qoymuş Türkoloji Qurultayın artıq dünya türkologiyasının mərkəzinə çevrilən Bakıda keçirilməsini qanunauyğun hal hesab etmək mümkündür. Qurultaydan sonra yeni əlifbanın tətbiqi xüsusilə geniş vüsət alsa da, təəssüf ki, 1940-cı ildə siyasi motivlərə görə qəti olaraq dayandırılmışdır.

Bununla belə, Azərbaycan xalqının qabaqcıl nümayəndələri sonralar da dilimizin inkişafı yolunda öz imkanları daxilində bu və ya digər dərəcədə fəaliyyət göstərmişlər. Əllinci illərin siyasi abhavasında meydana çıxmış yumşalma ana dili ilə bağlı proseslərin müsbət istiqamətdə sürətlənməsinə müəyyən təsir göstərmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə dilimizin inkişafı yeni mahiyyət kəsb etmişdir. Bu proses Azərbaycan dilinin tərəqqisində növbəti mərhələnin başlanğıcı olmuşdur. Həmin illərdən etibarən Azərbaycan dilinin istifadə dairəsi genişlənmiş, onun tədrisi və tədqiqi ilə məşğul olan müəssisələrə xüsusi qayğı göstərilməyə başlanmışdır. Azərbaycan dili sabiq Sovet İttifaqı xalqlarının dilləri arasında öz ölkəsinin konstitusiyası ilə təsbit edilmiş az sayda dövlət dillərindən biri olmuşdur.

Müstəqillik illərində dilimiz sözün əsil mənasında dövlət dili statusu qazanmışdır. Heydər Əliyev tərəfindən imzalanmış «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli 506 nömrəli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli, 552 nömrəli müvafiq fərmanlar isə ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilə bilər. Bütün bunlar Türkoloji Qurultayın qərarlarının məntiqi davamı olmaqla, həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir.

Türkdilli xalqlarıın, eləcə də Azərbaycan xalqının mədəni həyatında böyük rol oynamış Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 noyabr 2005-ci il.**